İLHAMİ CƏFƏRSOY

# ŞUŞA – SUZİANA MİXİYAZILI ABİDƏLƏRİNİN DİLİ

Bakı – 2023

**AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi Şurasının qərarı ilə (19 iyun 2023, protokol № 4) çap olunur**

**Elmi redaktor:** **Nizami Cəfərov**
*akademik*

**Rəyçilər:** **İlham Həsənov**
*tarix elmləri doktoru, professor*

**Yaşar Qasımbəyli**
*filologiya elmləri doktoru*

**Aysel Əhmədova**
*filologiya üzrə fəlsəfə doktoru*

İlhami Cəfərsoy. Şuşa – Suziana mixiyazılı abidələrinin dili. Bakı, "Zərdabi Nəşr" MMC nəşriyyatı, 2023, - 248 səh.

*Kitab 2023-cü il üçün Türk dünyasının mədəniyyət paytaxtı Şuşa şəhərinin və Şuşa nəslinin dilinə, etnik tarixinə, etnogenezinə həsr olunmuşdur. Əsərdə elmi ictimaiyyətin müzakirəsinə belə bir problem çıxarılır ki, Şuşa yalnız Azərbaycanda bir şəhərin və üç kəndin adı deyildir, qədim Ön Asiyanın elitar bir nəslin adıdır. Həmin nəsil ilk Şuşa şəhərini Şumerin cənub-şərqində sonralar Elam adlanan ölkədə salmışdır. Avropa və rus tarixçiləri öz məqsədlərinə uyğun olaraq Şuşa şəhərini Suz, Şuşa mahalını Suziana adlandırırlar.*

*Şuşa alpları Assuriyanın himayəsi altında on il Troyanı yunanlardan qorumuş, Troyanın süqutundan sonra cənub-qərbi Avropaya köçmüşlər. Üçüncü Pun müharibəsindən sonra İtaliyanın şimalında yeni bir Şuşa şəhərini salmışlar. Şuşalıların Elamda qalan cəngavərləri əhəmənilərlə vuruşa-vuruşa Qafqaza köçmüş, Albaniya ilə İveriya arasında Şuşa şəhərini salmışdır. 270 il yaşı olan Şuşa Qala adı ilə salınan son Şuşamızdır.*

*Şuşa nəslindən I Ər Şuşa III əsrdə, II Ər Şuşa V əsrdə çoxtayfalı İveriya üzərində hökmran olmuşdur.*

©AMEA Nəsimi adına Dilçilik İnstitutu, 2023

# ƏN QƏDİM ŞUŞA

Şuşa yalnız mədəniyyət paytaxtımızın adı deyildir. Qədim dünyanın elitar nəsillərindən birinin adıdır. O nəsil ki, yalnız Qafqazda yox, İveriyada, İtaliyada, Türkiyədə Avropa tarixçilərinin Suziana adlandırdıqları ən qədim Şuşada dövlətlər, mədəniyyətlər yaratmışdır.

Biz 2022-ci ildə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın 270 illiyini qeyd elədik. Ən qədim Şuşa isə ondan 4 min il qabaq var idi. Həmin şəhər e.ö. XVIII - e.ö. VII əsrlərdə Elamın paytaxtı olmuşdur. Şəhər Zaqros dağlarının cənub-şərqində, Şumerin qonşuluğunda idi.

Avropa və rus tarixçiləri ilkin mənbələrdə şəhərin adının Şuşa olduğunu bilirlər. Ancaq öz gizli niyyətlərinə uyğun olaraq yazırlar ki, biz şəhərin adının Suz kimi dərsliklərə salınmasını məsləhət bildik [Шопен: 1852, s.100; Дьяконов: 1954, s.62; Массон: 1964, s.321; Хинц: 1987, s.7, 40, 61, 160; Бузекул: 1904, s.140].

Azərbaycan tarixçiləri arasında şəhərin adının Suz formasını qəbul edənlər az deyil. Onlardan fərqli olaraq qədim dünya tarixinin bir çox tanınmış tədqiqatçıları Z.A.Raqozina, B.A.Turayev yazırlar ki, Suz, Suziana şəhərin adının sonrakı yunan formasıdır. Daha əvvəlki Akkad və Assur mənbələrində şəhərin adı Susa, Suza formalarında yazıya alınmışdır [Рагозина: 1902, s.495, 497, 499; Рагозина: 1903, s.293, 311; Тураев: 1914, s.79].

Qədim mixiyazılı mətnlərdə Şuşa etnotoponimi şu-şa-an hecaları ilə yazılıb. İ.Ş.Meşşaninov o adı Şuşaan [Мещанинов: 7614, s.6, 9], A.Oppenheym Şuşan [Оппенхейм: 1990, s.30] kimi oxuyur. Şuşa sözün kökü, -an çoxluq bildirən şəkilçidir. Sonrakı fonetik əlifba ilə yazılmış salnamələrdə isə şəhərin adı Şuşadır.

Xilafət dövrünün tarixçilərindən Əbu Osman Cahiz əl-Bəsri sasanilərin zamanında yaşamış Şəfran ət-Tirmiziyə istinadən ya-

zır: – Biz onların Mədaində və Şuşada nə məqsədlə zeytun ağacları əkdiklərini bilirik [Cahiz: 2001, s.55, 75].

Zeytun bağları o zaman yalnız meyvəsinin yeyilməsi, yağ hazırlanması üçün salınmırdı. İn Şuşinak məbədinin kahinləri zeytun ağacının meyvəli budağındakı yarpaqları sayaraq fala baxırdılar. İnsanların gələcək taleyindən xəbər verirdilər.

İn Şuşinak Enin, yəni göylərin, tanrıların himayə etdiyi Şuşa kahini, şamanı deməkdir. Şuşa dua mətnlərində allaha Tanri deyilir [Хинц: 1987, s.90]. İn, en, an Şumer və Akkad dillərində olduğu kimi [Samuel N. Kramer: 2012, s.359; İslam Sadıq: 2020, s.392] Şuşa dilində tanrıların məkanına deyilir.

Elamın Şuşa əsilli hakimləri in titulu daşıyırdılar. Onlardan biri eradan öncə XII əsrdə yaşamışdır [Массон: 1964, s.221].

Qədim Şuşa şəhəri və Şuşinak məbədi haqqında ən maraqlı bilgilərdən biri Kvinta Kursiyanın Makedoniyalı İsgəndər haqqında kitabındadır. Kvinta Kursiya hələ 1750-ci ildə yazırdı ki, indi İranın cənub-qərbindəki Xuzistan adlanan ölkə eradan əvvəl II-I minilliklərdə Suza adlanırdı. Ölkənin baş məbədinə isə Suzam deyilirdi [Квинта Курция: 1750, s.521]. Suzam ilahə Şuşanın evi, məbədi deməkdir.

Azərbaycanın dövlət büdcəsindən əməkhaqqı alan iranpərəst tarixçilər görmək istəmirlər ki, XIX əsrin sonlarına qədər nəşr olunan xəritələrdə şəhərin adı Suz yox, Suza formasındadır. Xəritələrin "İzahlar" fəslində qeyd olunur ki, Suza şəhəri Suziana ölkəsinin, yəni indiki İranın dörddə birinin paytaxtıdır [Краткая древняя география: 1851, s.153].

Payızın sonunda torpaq şumlanır, tarlalara dən səpilir, aprel ayında arpa, may ayında buğda zəmiləri biçilirdi. Əkinçilər sünbülləri biçib xırmana tökür, döyərək dəni qılçıqdan ayırır, əl-ələ tutub buğda təpələrinin ətrafında rəqs edirdilər.

Şuşa təqvimində biçin ayı və xırmanda oynanan rəqs Yallu adlanırdı [Храновский: 2010, s.142]. Yallı rəqsi Turan mənşəli, xan titullu fironların dövründə Misirdə də oynanırdı. Məbədlər-

dən tapılan perqament mətnlərində həmin rəqs Ealu, Yelelu, Elelu formalarında yazıya alınmışdır [Дьяконов: 1990, s.101, 146, 234; Тураев: 1913, s.65, 191].

Yallı məhsul bayramı Şumerdə və Şuşada olduğu kimi indiki Türkiyə ərazisində də var idi. Kayseri şəhəri yaxınlığındakı Kül təpədən tapılan mixiyazılı kitabədə məhsul bayramı günü Elali adlanır [Янковский: 1968, s.101].

Şumer gil lövhələrində Alalu teonimi var. Alalu çörək, sünbül tanrısı idi [Дьяконов: 1990, s.101, 146, 234]. Bu mətnlər aydın göstərir ki, yalnız Şuşa dilində deyil, qədim Ön Asiyanın bir çox prototürk dillərində məhsul bayramı rəqslərinə Yallu deyilmişdir.

Əhəmənilər eradan əvvəl 639-cu ildə Elam dövlətinin varlığına son qoydular [Хинц: 1987, s.38]. Ölkənin Bərdə, Şuşa, Anca şəhərlərinin əhalisi dağlara köçərək tikdikləri qalalara sığındılar. Həmin qalalarda Xəzinədarlar dövlətini yaratdılar.

Şuşa xəzinədarlarının saxsı küplərində 50 min talant dəyərində bürünc külçə var idi [Вильгельм Вагнер: 1901, s.925]. Nəzərə alsaq ki, 1 talant eradan əvvəl II-I minilliklərdə 9 kq-la 28 kq 902 qram arasında dəyişirdi, deməli bizim əcdadlarımız qədim dünyanın çox varlı sahibkarları olmuşdur.

Xəzinədarlar eradan əvvəl XV əsrdə ölkədə borc-kredit sistemi yaratmışdılar. Kredit götürən adam imzasını barmağını mürəkkəbə bulayıb kağıza basmaqla təsdiq edirdi. Şuşalı bankirlər hələ 3-4 min il bundan qabaq bilirdilər ki, insanların barmaq izləri bir-birinə bənzəmir.

Makedoniyalı İsgəndər əhəmənilərin varlığına son qoyub Baqavana və Şuşaya gələndə xəzinədarlar onu sevinclə qarşıladılar [Вильгельм Вагнер: 1901, s.829, 831]. Yalnız ona görə yox ki, İsgəndər onların amansız düşmənlərini məhv etmişdi. Həm də ona görə ki, İsgəndər ata xəttilə Karan, ana xəttilə Aran nəslindən idi. Aran və Karan Ön Asiyanın iki prototürk nəsilləri olub şuşalılara qohum idi. Onların bir hissəsi cənub-qərbi Avropaya köçüb Beotiyanı və Olimpi tutmuş [Трачевский: 1889, s.58,

115; Matlock: 2015, s.11, 272, 301, 307; Квинта Курция: 1750, s.13; Архимандрит Іероним: 1883, s.57, 58; История религии: 1872, s.123, 124], bir hissəsi Suzun şimal-qərbində qalmışdı [Оппенхейм: 1990, s.13, 309].

İsgəndər ulu babası Temenin Aran əsilli olduğunu bilirdi. Eləcə də yalnız Suzda yox, Albaniyada və İveriyada yaşayan Aran nəsillərinin ona qohum olduğunu bilirdi. Bilməsəydi, Aranın oğlu Azonu Makedoniyanın vassalı kimi İveriyaya hakim təyin etməzdi.

Akademik Marr yazır: – Makedoniyalı İsgəndərin İveriyaya göndərdiyi Azonun atasının və nəslinin adı Aran olmuşdur [Марр: 1897, s.302; Марр: 1901, s.24].

Ola bilər ki, mənim istinad etdiyim mənbələrin bəzilərində Aran adına yox, Kadm, bene-Kadem adlarına təsadüf edilsin [Архимандрит Іероним: 1883, s.175; Шопен: 1866, s.46, 55]. Arximandrit İeronim (III əsr) yazır ki, Bibliyadakı Kadm, Kadmon, bene-Kadem Aran övladları deməkdir. Sözün hərfi mənası Şərq oğullarıdır [Архимандрит Іероним: 1883, s.172].

Makedoniyalı İsgəndərin anasının adı Alinpe idi. Aran dilində alinpe at alınlığı deməkdir. Aran alpları hələ bürünc dövründə atların başına alınlıq taxırdılar ki, toppuz zərbələrinə davam gətirib yıxılmasın.

Yunanlar böyük fatehin anasının adını Olimpia kimi yazırlar. Olimpia alinpe sözünün yunanlaşmış formasıdır. Aran alpları Elladaya köçməzdən qabaq Naxçıvandakı Əlincə dağını Alinpe adlandırırdılar. Dünyanın ilk Olimpiada yarışlarını indi Əlincə adlanan Alinpe dağının ətəyində keçirirdilər.

Türkoloji tədqiqat üçün maraqlıdır ki, idman oyunlarından birinə çovkan, döyüşçülərin qalxanlarına kalkan deyirdilər.

Elamın Şuşa şəhərinin əhalisi hansı dildə danışırdı? Onların irqi, antropoloji quruluşu necə idi? Arxeoloqlar, tarixçilər bu suallara hələ XIX əsrin sonlarında cavab tapmışdılar. Ancaq o cavablar rus və Avropa siyasətçilərinin istəyinə uyğun gəlmədi-

yindən dərsliklərə, ensiklopediyalara daxil edilməsinə imkan vermədilər.

Elamın qədim etnosları üç irqə – ağ, qara, palıd irqlərinə mənsub olublar. İki və ya üç dildə danışıblar. Bizim üçün maraqlıdır ki, həmin irqin biri Turan irqi, həmin dillərin biri və ya ikisi prototürk dili idi. Bunu Bisütun qayasından tapılan yazılı mətnlər təsdiq edir.

Elamın Şuşa şəhərindən eradan əvvəl III minilliyə aid keramika tapılmışdır. Həmin keramikanın bəzəkləri Türkmənistanın Anau yaşayış məskənindən tapılan saxsı qabların bəzəkləri ilə eynidir.

Şuşa etnik tipi ilə Akkadın, Kutinin bir çox etnoslarının dili və antropoloği tipi uyğun gəlir. Diyala çayı sahilindəki Şeyx xan yaşayış məskənindən Kuti hökmdarının barelyefi tapılmışdır. Hökmdarın başında Şuşa tipli türban var. Ayağının altındakı düşmən yalvarıb aman diləyir.

Fransız arxeoloqu E.Q.Ami onu antropoloji cəhətdən Şuşa azərbaycanlılarına bənzədir [Дьяконов: 1954, s.25-27].

A.Traçevski yazır ki, Elamın qədim sakinləri olan suzlular Kam mənşəli Kuş övladlarıdır. Kam mənşəli Kuş övladları ari və sami deyildilər. Onlar Elama Xəzər dənizinin şərqindən köçüb gəlmişdilər [Трачевский: 1889, s.22, 24, 47; Историография: 2002, s.17].

Şuşalılar ağ irqdən olan adamlar idilər. Elamdan Albaniyaya ilə İveriya arasında köçənə qədər azca dəyişikliklə dillərini, xarici görkəmlərini qoruyub saxlamışdılar. Onların Kam mənşəli soydaşları Quşçu alpları daha güclü olduqlarından axınları davam etdirib Nil vadisini tutdular. Misirdə firon oldular. 511 il sonra cənuba Nubiya səhrasına qovuldular. Beş-altı yüz il də ötdü, orada qara qıvrıq saçlı, qalın qara dodaqlı irqə çevrildilər.

Fransız arxeoloqları 1902-ci ildə Şumer ilə Şuşa arasından insan başlı buğa heykəli tapdılar. Heykəlin hündürlüyü 3 m. 30 sm-dir. Eyni buğa bütlərinin oxşarı Naxçıvanla İrəvan arasından

tapılmışdır. Ancaq onların hündürlüyü 30 sm-dir. Bu arxeoloji tapıntılar onu göstərir ki, Şuşa, Bərdə, Anca əhalisinin çoxu döyüşlərdə öldürülmüş, az bir qismi Kür və Araz vadisinə gəlib çıxmışdır.

Akkadlar Elamı tutanda Şuşada ağ at heykəli qoydular. Çünki onlar ağ ata sitayiş edirdilər və özlərini ağ at adlandırırdılar. Akkadların adı qədim Ön Asiyanın mixiyazılı mətnlərində Akate kimi yazılmışdır. Akate totemi ağ at olan etnos deməkdir.

Ağ ata tapınan prototürk akadlar e.ö. XI əsrdə samilərlə qarışdılar. Tədricən öz dillərini unudub, ərəblərin və yəhudilərin əcdadlarının arasında assimilyasiya olundular.

Yaxşı olar ki, Şuşanın Ağoğlan qapısında ağ atın və ağ buğanın heykəlləri qoyulsun. Ən qədim Şuşa Elamda dağılıb yerlə yeksan olsa da, ən yeni Şuşa Azərbaycanda qalmaqdadır.

Buğa bütləri yuxarı Araz çayı vadisindən də tapılmışdır. Onlar Urartu dövrünə aiddir. Ermənilərin katolikosu Şahxatunyans Van gölü vadisindən tapılan mixiyazılı kitabələri oxutmaq üçün Fransaya apardı. Biləndə ki, Urartu qaya yazılarında Şumer və Şuşa sözləri vardır [Шор: 1931, s.229], əli ətəyindən uzun İrəvana qayıtdı.

Elamın Anca və Şuşa mətnlərində vilayət hakimlərinə menik, ölkənin hakiminə halmenik deyilirdi [Хинц: 1987, s.32]. Hal alınmış, işğal edilmiş ölkə, menik mənimsəyən deməkdir.

Məktəb rəhbərlərinə turukucu deyilir [Хинц: 1987, s.84]. Məktəb rəhbərləri turukun, yəni qamışın ucunu şişləyib qələm hazırlayır perqamenti yazırdılar.

Urartu çarı Argişti ermənilərin Erebuni adlandırdıqları İreba mahalında Od məbədi tikdirmişdi. Həmin od məbədi sasanilərin od məbədinə bənzəmir, Suziananın od məbədinə bənzəyir. Mehrablar, ocaq yerləri Elamın Şuşa məbədində olduğu kimidir. Bunu ermənilər çoxdan bilirlər [Оганесян: 1961, s.13, 31], bizim tarixçilərin xəbəri yoxdur. Onların düşüncəsinə görə atəşpərəstlik cənubi Qafqaza İrandan gəlmişdir.

Elamın Şuşa şəhəri yaxınlığında, Misirdə, Aralıq dənizi adalarında Təndir adlı şəhərlər, kəndlər var idi [Масперо: 1911, s.19; Тураев: 1913, Xəritə; Авдиев: 1948, s.21]. Həmin yaşayış məskənlərini təndirin timsalında çörəyə, urzaya tapınan prototürklər salmışdılar.

Özünü Təndir adlandıran etnosların ölkəsi kopt və aramey mətnlərində Tentira, Dendera, Tindara formalarında yazıya alınmışdır. Həmin yaşayış məskənlərindən biri XIV əsrə qədər qalırdı.

Əbdürrəşid Bakuvi yazır: Dendera Nil çayının sahilində gözəl şəhərcikdir. Çoxlu axar suları, üzümlükləri, xurma bağları var [Bakuvi: 1992, s.52]. Avropa və rus dilçilərinə görə Tendera türk sözü ola bilməz. Baxmayaraq ki, Azərbaycan dilində təndirə təndir, özbəkcə tandir, Balkan türklərinin dilində tantir deyilir [Эдельман, Климов: 1991, s.125-129].

B.İ.Edelmana, T.A.Klimova görə təndir İran dillərinə aid sözdür. Eradan əvvəl V-IV minilliklərdə Elam etnoslarının dilində ocaq, soba anlamında tentir sözü var idisə və o zaman İranda irandilli etnoslar yaşamırdısa, təndir necə tacik sözü ola bilər? İ.M.Dyakonov hələ keçən əsrin ortalarında sübuta yetirmişdir ki, irandilli etnoslar indiki İrana eradan əvvəl IX əsrin sonlarında gəliblər.

Qədim yevrey və aramey dillərində də tentir sözü vardır. İosif Flavi (I əsr) yazır ki, yevreylər yəhudi deyillər, bene-Kadem övladlarıdır. Bene-Kadem övladları Bibliyada Asiyadan gəlib Aralıq dənizi hövzəsində məskunlaşan xalqlara deyilir. Aramey dilində ona görə tentir sözü vardır ki, arameylər e.ö. XI əsrə qədər samiləşməmişdilər. Türk dillərinin arxaik ləhcələrində danışırdılar.

Təndir sözü bene-Kadem övladlarının dilindən dendera, tindara formalarında kopt, yunan, latın dillərinə keçmişdir. Misirdəki Dendera şəhəri sülaləyə qədərki dövrə [Поэзия и проза древного Востока: 1973, s.660; Викентьев: 1917, s.251], yəni e.ö. IV minilliyin sonlarına aiddir.

Rollen 1751-ci ildə nəşr olunan "Qədim tarix" əsərində yazır ki, doqquzuncu Sparta hökmdarının adı Tindar olmuşdur. Həmin Tindar Zevsin oğurladığı gözəl Yelenin atası idi [Роллен: 1751, s.273].

Nəzərə alsaq ki, Yelenin əsil adı Gelen, yəni gəlin olmuşdur, onun və atasının adı türkoloji tədqiqatın obyektinə çevrilməlidir.

Publi Maron Vergili yazır ki, Troya hökmdarı Piramın sevimli qızının adı Tindaria olmuşdur. Tindaria Menelayın xanımı idi [Энеида: 1933, s.376, 414].

Vergilinin təfsirçilərinə görə Tindaria "Eneida" eposundakı Yelenadır [Энеида: 1933, s.376]. Bu məlumat onu göstərir ki, yunanlar Gəlin adını Yelena formasında troyalılardan mənimsəyiblər.

Təndir sözü Ön Asiyanın iltisaqi dillərində eradan əvəvl V-IV minilliklərdə var idisə [Эдельман, Климов: 1991, s.125] və samilər tarix səhnəsində e.ö. XXIII əsrdə, arilər e.ö. XX əsrdə görünüblərsə, təndir prototürk sözüdür.

Elamın Şuşa şəhərindən yatmış dəvə bütləri tapılmışdır. V.İ. Masson yazır ki, dəvə Suzda dövlət rəmzi idi [Массон: 1964, s.225]. Dəvəyə tapınan etnoslar yalnız Şuşada yox, qədim Ön Asiyanın digər ölkələrində də yaşayırdılar və dəvəyə tive, dəvəçilərə tiveli deyirdilər.

Tiveliya – Türkiyənin Boğaz köy muzeyində saxlanan mixiyazılı kitabədə yaşayış məskəni [Гиоргадзе: 1985, s.311; Джаукян: 1964, s.86, 94]. Tiveliya Dəvəli xalqının ölkəsi deməkdir.

Dəvəyə tapınan prototürklər əhəmənilərlə vuruşa-vuruşa Şuşa ilə Şumer arasından yuxarı Araz çayı vadisinə, Qafqaz dağlarının ətəklərinə çəkildilər. Onların saldıqları şəhərlər kilsə salnamələrində Teve, Develi, Tivi, Dvali, Dvaleti adlandırırlır [Гамкрели: 1961, s.97; Орманян: 1913, s.47; Дидебулидзе: 1983, s.32; Шопен: 1852, s.275; Переписька грузинских царей: 1861, s.94].

İveriyada yaşayan Dəvəli xalqı xristianlıqdan sonra gürcüləşdi. Dilini, etnik kimliyini unutdu. Azərbaycanda Türk və müsəlman olaraq qaldı.

Arxeoloqlar XX əsrin əvvəllərində Qara Bulaq (indiki Füzuli) şəhəri yaxınlığındakı bir qəbirdən 2 insan, 3 dəvə skeleti tapıblar [Сысоев: 1925, s.14]. Bu tapıntı onu göstərir ki, totemi dəvə olan prototürklər Azərbaycanda xristianlıqdan çox qabaq Troya dövründən yaşamışdır.

Totemi dəvə olan türklərin bir oymağı özünü Tiveçi adlandırır və Xəzər dənizinin şərq sahilindəki Balxan dağlarında yaşayırdı. Bu barədə Əbülqazi Bahadur xan "Şəcereyi-tərakime" əsərində məlumat vermişdir [Кононов: 1958, s.77, 111].

Bizim Milli Məclisin Toponimiya Komissiyasının təqdimatı ilə Dəvəçi şəhərinin adını dəyişib Şabran elədilər. Nəzərə almadılar ki, Dəvəçi şəhər və kənd adları Şabrandan çox qədimdir.

Dəvəli şəhərinin biri də Araz çayının sol sahilində Naxçıvanla İrəvan arasında idi. Ermənilərlə yunanlar onu Dvin, ərəblər Dəbil adlandırırlar. İ.İ.Şopen yazır ki, şəhərin əvvəlki adı Dvin yox, Dəvəli olmuşdur. Həmin şəhər zəlzələdən dağılıb.

Porat – Elamın Şuşa vilayətinin cənubunda ölkə və şəhər [Марр: 1927a, s.166; Алиев: 1960, s.33]. İndi həmin şəhər yoxdur. O illərin yadigarı kimi Fərat etnohidronimi qalmaqdadır. Fərat çayının qədim adı Porat idi. E.ö. II minilliyə aid Akkad yazılarında Fərat çayı Porat, Xaldey yazılarında Porday adlanır [Марр: 1927a, s.166; Шопен: 1866, s.52]. Porat boz at, Porday boz day deməkdir.

Hər il yaz gəlib sellər coşanda Fərhad nəslinin patriarxları Porat ayini keçirərdilər. Ayin zamanı Fərat çayına boz dayça qurban kəsərdilər [Шопен: 1866, s.52].

Fərhad və sevgilisi Şirin Elamdakı Şuşa şəhəri ilə Bəsrə arasındakı Porat ölkəsində doğulmuşdular. Fərhadın adı qədim Aramey mətnlərində Porat, Şirinin adı Seren formasındadır.

MÜNDƏRİCAT

Ən qədim Şuşa....................................................................3
Şuşa qartal deməkdir...............................................................13
Şirin Şuşa yolunda...................................................................22
Şuşa və Anca dillərinin Türk leksikası.......................................29
Qədim Şuşanın tanrıları və ilahələri..........................................50
Ən qədim Şuşanın ölkə və vilayət hakimləri.............................69
İtaliyada Şuşa şəhəri...............................................................103
Vergili: Şuşa əsilli İtaliya şairi.................................................144
Müqəddəs Şuşanikin iztirabları ..............................................163
Şuşanın məhəllələri və kəndləri .............................................167
Şuşanın çayları və bulaqları ...................................................209
Mənbələrin və elmi ədəbiyyatın siyahısı.................................220

Buraxılışa məsul: Mirzəyeva K.Ş.
Elmi nəşrlər şöbəsinin müdiri

"Zərdabi Nəşr MMC" nəşriyyat-poliqrafiya müəssisəsində
çap olunmuşdur.

Çapa imzalanmışdır: 28.12.2022
Format: 60x84 1/16
Həcmi:
Sifariş:
Tiraj: 500